Ədəbiyyat QƏZETİ №6 20 fevral 2026-cı il 

# Nəriman HƏSƏNZADƏ-95



Hörmətli Nəriman müəllim!

Sizi - görkəmli şairimizi 95 illik yubileyiniz münasibətilə təbrik edirik.

İki qərinədən artıqdır ki, sizin imzanız oxucularımıza tanışdır. Siz bədii yaradıcılığa 1953-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc etdirdiyiniz şeirlə başlamısınız. Elə ilk qələm təcrübələrinizlə poeziyasevərlərin qəlbini fəth edə bilmisiniz. Şeirləriniz müxtəlif ədəbi orqanlarda, toplularda ardıcıl dərc olunub. "Nabat xalanın çörəyi", "Zümrüd quşu", "Nəriman", "Sən bağışladın", "Bir az möhlət istəyirəm ömürdən", "Fikir eləmə", "Seçilmiş əsərləri", "Mənim nikahımı pozdu təbiət", "Bütün millətlərə", "Taleyin töhfəsi", "Gəlimli-gedimli dünya", "Pompeyin yürüşü", "Poylu beşiyim mənim", "Nuru Paşa" və başqa kitablarınız oxucular və ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb. Əsərlərinizdə həyatımızın rəngarəng bədii lövhələri, insanların mənəvi-psixoloji dünyası yüksək sənətkarlıqla qələmə alınıb. Sizin yaradıcılığınız şəxsi həyəcan, duyğu və düşüncələrinizin tərənnümü, bizi əhatə edən aləmin şairanə ifadəsidir. Vətənə, xalqa, gözəlliyə, tarixi keçmişimizə, müasir həyatımıza, təbiətə münasibət Sizin lirikanızın əsasını təşkil edir.

Siz dramaturgiya sahəsində də uğurlu əsərlərə imza atmısınız. "Bütün Şərq bilsin", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü" kimi pyesləriniz Azərbaycan teatrlarının səhnəsində uğurla tamaşaya qoyulub. Bu mənzum dram əsərlərində Azərbaycan xalqının ən qədim dövrlərdən bu günə qədər keçdiyi, yadellilərə qarşı mübarizələrlə dolu məşəqqətli, lakin şərəfli tarixi yol öz bədii əksini tapmışdır.

Siz bir çox ədəbiyyat nümunələrini, o cümlədən Maqsud Şeyxzadənin "Daşkəndnamə" poemasını, A.Nekrasovun, T.Şevçenkonun, İ.Franeonun, A.Puşkinin, İ,Çavçavadzenin əsərlərindən nümunələri dilimizə çevirmisiniz. Həmçinin, sizin də əsərləriniz başqa xalqların dillərinə tərcümə olunub, xarici ölkələrdə onlarca kitabınız işıq üzü görüb.

Siz indiki Gəncə Pedaqoji Universitetində və Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almısınız. "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri, "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor, Mətbuat və İnformasiya nazirinin müavini vəzifələrində işləmisiniz, eyni zamanda ali təhsil ocaqlarında dərs demisiniz. Elmi-ədəbi yaradıcılığınız da diqqətəlayiqdir. Ədəbi-tənqidi məqalələriniz "Tariximiz, taleyimiz" adlı kitabınızda toplanıb.

Ədəbi və ictimai fəaliyyətiniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Siz, "Azərbaycanın xalq şairi", "Əməkdar İncəsənət xadimi" fəxri adlarına, Heydər Əliyev mükafatına, "Şöhrət", "Şərəf", "İstiqlal", "Heydər Əliyev" ordenlərinə, Prezidentin fərdi təqaüdünə layiq görülmüsünüz.

Hörmətli Nəriman müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**